**UOT 94(479.24)**
https://doi.org/10.59849/2218-4783.2026.1.23

# NAXÇIVAN XANLIĞININ YAXIN MÜTTƏFİQLƏRİNDƏN BİRİ – GENERAL-LEYTENANT CƏFƏRQULU XAN XOYSKİ HAQQINDA BƏZİ QEYDLƏR

# SOME NOTES ON LIEUTENANT-GENERAL JAFARGULU KHAN KHOYSKI, A CLOSE ALLY OF THE NAKHCHIVAN KHANATE

**Musa RƏHİMOĞLU-QULİYEV***

## XÜLASƏ

Xoy xanlığının əsasını görkəmli Dünbülü tayfa başçıları qoymuşlar. Dünbülü tayfa başçıları hələ Səfəvi hökmranlığı dövründən Xoy vilayətini irsən idarə edirdilər. XV əsrdən başlayaraq XIX əsrin ortalarına qədər İranda və Azərbaycanın cənubunda altı (Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar, Zənd, Qacar) sülalə dəyişdiyi halda, həmin müddətdə Xoyda irsi hökmranlıq Dünbülü tayfasından olan nəslin əlində qalmışdı.

XVIII əsrin 60-80-ci illərində cənubda yerləşən Xoy xanlığı ən güclü və qüdrətli xanlıqdan biri idi. Xoylu Əhməd xan Azərbaycanın bir sıra xanlıqları və Gürcüstan (Kartli-Kaxeti) çarlığı ilə diplomatik əlaqə saxlayırdı. O, bir sıra xanlıqları, o cümlədən İrəvan, Naxçıvan və Qaradağ xanlıqlarını özündən asılı vəziyyətə salmışdı.

Məqalədə Əhməd xandan sonra Xoy xanlığını idarə edən Cəfərqulu xan Xoyskinin hakimiyyət başına gəlməsindən, onun Naxçıvan xanlığı ilə müttəfiqlik əlaqələrindən danışılır.

Məqalə XIX-XX-XXI əsrlərdə yazılan, nəşr edilən kitablar və yeni arxiv sənədləri əsasında yazılmışdır.

**Açar sözlər:** *Naxçıvan xanlığı, Kəngərli tayfası, I Kalbalı xan Kəngərli, Xoy xanlığı, Dünbülü tayfası, Xoylu Əhməd xan, Cəfərqulu xan Xoyski, Koroğlu qalası, Məhəmməd xan İrəvanski.*

## ABSTRACT

The foundations of the Khoy Khanate were laid by prominent leaders of the Dünbülü tribe, who had hereditarily governed the Khoy region since the Safavid period. From the 15th century until the mid-19th century, while six dynasties (Qara Qoyunlu, Aq Qoyunlu, Safavid, Afshar, Zand, Qajar) succeeded one another in Iran and southern Azerbaijan, hereditary rule in Khoy remained in the hands of the Dünbülü lineage. During the 1760s-1780s, the Khoy Khanate, located in the south, was one of the most powerful khanates. Ahmad Khan of Khoy maintained diplomatic relations with several Azerbaijani khanates and the Kingdom of Kartli-Kakheti (Georgia), subordinating a number of khanates, including those of Iravan, Nakhchivan and Qaradagh. This article discusses the rise to power of Jafarqulu Khan Khoyski, who governed the Khoy Khanate after Ahmad Khan, and his allied relations with the Nakhchivan Khanate. The study is based on books published in the 19th, 20th and 21st centuries, as well as on newly accessed archival documents.

**Keywords:** *Nakhchivan Khanate, Kengerli tribe, I Kalbali Khan Kengerli, Khoy Khanate, Dünbülü tribe, Ahmad Khan of Khoy, Jafarqulu Khan Khoyski, Koroghlu Fortress, Muhammad Khan Iravanski.*

## GİRİŞ

Naxçıvan xanlığının hərb tarixini dərindən öyrəndikcə bir daha həmin illərdə aparılan diplomatiyanın və müdafiə döyüşlərinin aktuallığı daha aydın nəzərə çarpır.

Naxçıvan xanlığı nəinki qonşu xanlıqlarla, ümumiyyətlə Qafqaz regionundakı xanlıqlarla və burada marağı olan üç xarici dövlətlə normal münasibətlər saxlamağa çalışmışdır. Bəzi tədqiqatçılar yazırlar ki, xırda feodal dövlət qurumlarını xatırladan xanlıqlar ancaq bir-birləri ilə dava-dalaş apar-

* AMEA Naxçıvan Bölməsi, e-mail: kuliyevm@yandex.ru
ORCİD: 0009-0002-2952-4097

maqla məşğul olublar və sair. Bu fikir heç də tamamilə doğru deyildir. Çünki yeni sənədlər tapıldıqda aşkar olur ki, xanlıqlarda nəinki hərbi iş, həm də iqtisadiyyat, maarifçilik, quruculuq işləri sürətlə inkişaf edib. Biz tez-tez hərbi işlərdən ona görə yazırıq ki, həmin illərdə Azərbaycan xalqının qazandığı müstəqilliyi ancaq döyüşməklə qorumaq olardı. Çünki bir neçə güclü xanlıqlar birləşərək, digərlərini işğal etmək məqsədini güdürdülər. Tədqiqatlar göstərir ki, digər xanlıqlar öz aralarında hərbi, iqtisadi əlaqələri gücləndirməklə belə işğallara son qoymaq arzusu ilə müttəfiqlik yaradırdılar. Naxçıvan xanlığının daha sıx əlaqə, müttəfiqlik yaratdığı İrəvan və Xoy xanlıqları idi. Bu xanlıqları çox yaxın qonşu olmaqlarından savayı, həm də qohumluq telləri bağlayırdı. Hələ xanlıq yaranmazdan əvvəllər də Naxçıvan xanlarının ulu əcdadları olan Kəngərlilərin zəngin hərb tarixləri vardı. Bu tarixin çox səhifələrini azadlıq uğrunda aparılan döyüşlər təşkil edir. Buna görə də 1747-ci ildən sonra hakimiyyət uğrunda mübarizə aparanlar həmin sərkərdələrin varisləri idilər. Amma tarixi siyasi şərait elə olmuşdu ki, ancaq və ancaq güclü, qorxmaz, cəsur və iradəli hərbiçilər Naxçıvanın müstəqilliyini qoruya bilərdilər.

## XOYLU ƏHMƏD XANIN NAXÇIVAN XANLIĞINI ÖZÜNDƏN ASILI VƏZİYYƏTƏ SALMASI

1783-1785, 1787-ci illərdə Naxçıvana xanlıq etmiş Cəfərqulu xanın ata tərəfdən ulu babası Murad xan Kəngərli Naxçıvanın hakimi olmuşdu. Ancaq Cəfərqulu xan İrəvanda məskunlaşmış Abbasqulu xanın Naxçıvana yürüşünü eşidən kimi onu himayə edən Xoy xanı Əhməd xan Dünbülünün yanına getdi. Azərbaycanda olan bir çox xanlıqları, o cümlədən Naxçıvan xanlığını da Əhməd xan özündən asılı vəziyyətə salmışdı [Dəlili, 1979, s. 128]. Naxçıvan xanlığının işğalçılara qismət ola biləcəyindən ehtiyat edən Şükürəli xan hakimiyyəti ələ keçirdi. O, iki il hakimiyyətdə qala bildi [Əliyev & Əliyev, 1996, s. 57]. Çünki 1787-ci ildə Cəfərqulu xan Xoy xanı Əhməd xanın köməkliyi ilə yenidən Naxçıvan xanlığında hakimiyyəti ələ keçirdi. Əhməd xan İrəvan xanları və Axalsıx paşası Süleymanla da yaxın dostluq münasibətləri saxlayırdı [Бутков, 1869, s. 177]. Həm də onlarla yaxın qohum idi. Araşdırmalar göstərir ki, I Kalbalı xanın qardaşı Cəfərqulu xan xoylu Əhməd xanın ən yaxın silahdaşlarından olmuşdur. İrəvan xanı Məhəmməd xanın bir bacısını – Səltənət xanımı Əhməd xan, o birini – Tükəzban xanımı isə I Kalbalı xan almışdı [Quliyev, 2013, s. 58]. Bu səbəbdən hər iki xanlıq arasında etibarlı bir əlaqə vardı. Hər dəfə hakimiyyəti əlindən alınan Cəfərqulu xan Xoy xanlığına, Əhməd xanın yanına sığınmalı olmuşdu. II İraklinin şirnikləşdirici təhriki ilə Qarabağ xanı İbrahimxəlil xan bir neçə dəfə Naxçıvan xanlığına yürüş də planlaşdırmışdı. Azərbaycanın əksər xanlıqlarında öz adamlarını yerləşdirən Qarabağ xanının yolunda əngəl olan Naxçıvan xanlığı, daha doğrusu xanlığı idarə edən kəngərlilər idi. Baxmayaraq ki, Abbasqulu xan onun dediklərini eyləyirdi. Amma bu tayfanın digər söz sahibləri olduğunu anlayan İbrahimxəlil xan xoylu Əhməd xanı da bu yürüşə qoşmaq istəyirdi. Bütün bu prosesləri diqqətlə izləyən rus komandanlığının Qafqazdakı xüsusi səlahiyyətli nümayəndəsi polkovnik Burnaşev P.S.Potyomkinə məlumat verirdi. Burnaşev Qarabağ xanına mane olmaq üçün Xoy və Urmiya xanlarına məktub yazıb tələb etdi ki, Naxçıvan xanlığının müdafiəsinə qalxsınlar. Hadisələr o qədər gərgin vəziyyət almışdı ki, Naxçıvan xanlığı kömək üçün Rusiyaya müraciət etmişdi [Əliyev & Əliyev, 1996, s. 60].

Cəfərqulu xanın zəifliyi ucbatından 1787-ci il mayın əvvəllərində İbrahimxəlil xan Naxçıvan qalasını ələ keçirdi və öz adamı olan Abbasqulu xanı hakimiyyətə gətirdi. Bütün bu prosesləri diqqətlə izləyən I Kalbalı xan Naxçıvanı xilas etmək üçün hakimiyyəti ələ keçirdi və bütün kənar qüvvələri məharətlə xanlığın ərazisindən çıxarda bildi. O qədər cəsarət göstərdi ki, II İrakli ilə İbrahimxəlil xanın Naxçıvanı mənimsəmək niyyətlərini tez bir zamanda puç elədi [Quliyev, 2013, s. 59].

Əhməd xan 1786-cı ildə sui-qəsd nəticəsində həlak ediləndən sonra hakimiyyət taxtında onun qardaşı Şahbazın oğlanları oturmaq üçün mübarizəyə girişdilər. Elə başqalarının təhriki ilə sui-qəsdin təşkilatçısı da onlar idi. Mənbələrin yazdığına görə qəsdçilər hakimiyyətə gələ bilmədilər [Dəlili, 1979, s. 133].

## CƏFƏRQULU XAN XOYSKİNİN HAKİMİYYƏTƏ GƏLMƏSİ

Onların öldürə bilmədikləri Cəfərqulu xan (Əhməd xanın qardaşı oğlu) çox cəsarətli və döyüşkən bir hərbiçi idi. Hadisələrin çox gərgin bir vaxtında o, çoxlu sayda döyüşçü toplaya bildi və Xoy xanlığına sadiq müttəfiqlərindən də yardım istədi. Çünki müstəqil yaşamaq istəyində olan Xoy xanlığını məhv etmək istəyənlər əslində kənarda dayanan böyük qüvvələr idi. Cəfərqulu xana Marağalı Əhməd xan, İrəvan və Naxçıvan xanları, həmçinin Kartli-Kaxetiya çarı II İrakli də yardım etdi. Ələttə, II İrakli bu köməyində həmişə olduğu kimi, ikitərəfli diplomatik oyun oynayırdı. Onun həmişə ən ümdə arzusu Naxçıvan və İrəvan xanlıqlarının ərazisinə sahib olmaq idi. Xoy xanlığına Hüseynqulu xan (Cəfərqulu xanın böyük qardaşı), sonralar isə cəsarətdə I Kalbalı xandan geri qalmayan Cəfərqulu xan Xoyski başçılıq edirdi [Mustafayeva, 1995, s. 57]. Bir məsələni hökmən qeyd etmək yerinə düşər. Gizlində Naxçıvanı tutmaq uğrunda Xoy, İrəvan, Qarabağ və Kartli-Kaxetiya çarlığı arasında mübarizə gedirdi. Doğrudur, Cəfərqulu xan Xoyskinin hakimiyyəti illərində I Kalbalı xan bunu əsl dostluğa çevirə bildi. Ancaq ilk əvvəllər bu məsələ olduqca mürəkkəb idi. I Kalbalı xan hakimiyyətə gələn kimi onların hər biri ilə gizli danışıqlar apardı və vaxt qazanmaq üçün bunlarla müvəqqəti müqavilələr bağladı [Нагдалиев, 2006, s. 19-20]. Qafqazın ən böyük tacirləri, sonralar İbrahimxəlil xanın başağrısına çevrilən Qarabağ məlikləri I Kalbalı xanın cəsarəti və hünəri önündə, necə deyərlər, əmrə müntəzir idilər. Dağıstan xanlıqlarında, camaatlığında və sultanlıqlarda, hətta gürcü çarlığında onunla hesablaşmalı oldular. Artıq Naxçıvan xanlığı yeni inkişaf mərhələsinə qədəm qoymuşdu. Lakin 1792-ci ilin yanvarında Qarabağ xanı öz vədinə xilaf çıxaraq yenidən Naxçıvana hərbi yürüşə başladı. Həmin ilin sərt qışında İbrahimxəlil xan öz qaynı Avar xanlığının hakimi Ömər xanla 11 min sayda qoşun toplayaraq Xan dikindəki Naxçıvan qalasını mühasirəyə aldılar. Naxçıvan xanlığının Kəngərli süvariləri igidliklə 6 gün qalanı müdafiə etdilər və bu vaxt I Kalbalı xan da onlarla birlikdə döyüşürdü. Onun göstərişi ilə döyüşçülər yeraltı lağımlarla qaladan kənara çıxıb əlbəyaxa döyüşlərə başladılar. Həmişə Qafqazda özlərindən başqa məharətlə döyüşən tanımayan dağlı qoşunları Kəngərli süvarilərinin döyüşlərini görəndə çaxnaşmaya düşdülər. Və bu vaxt Naxçıvanın müdafiəsində döyüşənlər sırasında Cəfərqulu xan Xoyski öz qoşunu ilə, həmçinin Məhəmməd xan öz döyüşçüləri ilə əsl sədaqət göstərirdilər. Məhəmməd xan onlardan gənc olsa da, çalışırdı ki, düşmənə onlar kimi zərbə vursun. İki dost, bacanaq (Əhməd xanın ölümündən sonra Cəfərqulu xan Səltənət xanımla evlənmişdi) və Qafqazın ən məşhur sərkərdələri öz adlarını tarixin ədalət səhifəsinə qızıl hərflərlə yazırdılar [Quliyev, 2013, s. 91]. Çoxlu sayda qurban verən işğalçı qoşunlar qaçmağa üz qoydular. Tarixi mənbələr yazır ki, düşmən tərəf 1000 nəfər döyüşçü itirmişdi. Naxçıvan camaatı qalanın müdafiəsində şəhid olmuş hər üç – Naxçıvan, İrəvan və Xoy xanlıqlarının döyüşçülərini dərin ehtiramla torpağa tapşırdılar. Bu qanlı döyüşün yeri isə Naxçıvanda bu günədək "Ləzgi qırılan yer" adı ilə məşhurdur [Нагдалиев, 2006, s. 21].

Cəfərqulu xan və I Kalbalı xan daha yaxın müttəfiq kimi fəaliyyət göstərdilər. Hətta hər ikisi 1795-ci ildə Ağaməhəmməd şah Qacarın Tiflis üzərində qanlı yürüşündə məcburən iştirak etdilər. Hətta sonralar Cəfərqulu xan Xoyski Rusiyanın general-leytenantı Knorrinqə yazırdı: "...mən canıdildən Ağaməhəmməd şaha xidmət etmişəm, onun çox yerləri işğal etməsində köməyimə görə günahkaram..." [АКАК, т. I, 1866, s. 676-677].

I Kalbalı xanı ədalətsiz olaraq çox vəhşicəsinə cəzalandıran Ağaməhəmməd şahın öldürülməsindən sonra da Cəfərqulu xan başqa etibarlı müttəfiqlər arayırdı. 1797-ci ildə olan bir hadisə onu qətiyyətlə siyasi kursunu dəyişdirməyə məcbur etdi.

Həmin ildə Cəfərqulu xan səfərdə olarkən, Abbas Mirzə Xoy qalasına hücum edərək onun qardaşını, arvadını və oğlunu girov götürdü. Bundan sonra Cəfərqulu xan öz qoşunu ilə Maku qalasına çəkildi. Yaxın qohumu Bəyazid paşasının köməyi ilə qalanı müdafiə etdi. Abbas Mirzəyə təslim etmədi. Təhlükəsizlik məqsədilə sonralar qaynı Məhəmməd xan İrəvanskinin dəvəti ilə Koroğlu qalasında qalmalı oldu. Artıq o, bu vaxtlar Rusiya sərdarı Sisiyanovla danışıq aparırdı. I Kal-

balı xan isə onu dilə tutmağa çalışırdı ki, Rusiya təbəəliyinə getməsin. Onun ailəsini girovluqdan xilas edəcək. Xoy xanlığının və ona məxsus olan xəzinənin əlindən çıxdığını görən Cəfərqulu xan öz fikrində qəti idi. Qafqaz Aktlarında deyilir ki, elə 1804-cü ildə Cəfərqulu xan Rusiyaya sədaqət andı içir [АКАК, т. II, 1868, s. 858]. Həmin ildə İrəvan qalasında məğlub olan Sisiyanov Tiflisə döndüyündən Cəfərqulu xan özünün 200 nəfər yaxın adamları ilə Pəmbək vadisində gizlənməli olur. İrəvan qalasında döyüşü udan I Kalbalı xanın və Məhəmməd xanın yolunu gedə bilmir. Əlbəttə, sonralar I Kalbalı xanla əvvəlki münasibəti bərpa edə bilir. Çünki necə deyərlər, Fətəli şahın xalqa göstərdiyi zülmdən qəzəblənən I Kalbalı xan da Cəfərqulu xanın vasitəsilə rus generalları ilə gizli danışıqları təzələməli olmuşdu...

1806-cı ilin 10 dekabrında imperator I Aleksandr Cəfərqulu xana iki fərman verir. Ona general-leytenant hərbi rütbəsi verməklə bərabər, həm də Şəki və Nuxa xanı təyin edir [АКАК, т. III, 1869, s. 271]. 12 yanvar 1807-ci ildə Tiflisdə Cəfərqulu xana almaz qələm və gerblə birlikdə bayraq da təqdim edilir [Исмаилов, 2003, s. 40]. Cəsur sərkərdə az bir müddət içərisində birinci dərəcəli Müqəddəs Anna ordeni və qiymətli daş-qaşlarla bəzədilmiş qılıncla mükafatlandırılır. Ona həm də Şəkinsiki familiyasını daşımağa icazə verirlər [АКАК, т. V, 1873, s. 555]. Cəfərqulu xan 22 avqust 1814-cü ildə qızdırma xəstəliyindən vəfat edir [АКАК, т. VI, ч. I, 1874, s. 746].

Cəfərqulu xanın 3 həyat yoldaşı olub. Bəyazid paşasının qızı (yaxud bacısı) Şərəf Nisə bəyim, Məhəmməd xan İrəvanskinin bacısı Səltənət bəyim və İbrahimxəlil xanın qızı Gövhər Ağabəyim.

Cəfərqulu xanın övladlarının anaları Şərəf Nisəbəyim olub. Gövhər Ağabəyimin övladı olmayıb. Səltənət bəyimdən isə bir oğulluğu olub: Kalbalı xan [Исмаилов, 2003, s. 40].

Cəfərqulu xan Xoyskinin varisləri haqqında geniş yazmaq məqsədimiz olmadığından yalnız oğulluğu Kalbalı xan haqqında azacıq danışmaq istərdik. O, Əhməd xanın oğludur. Cəfərqulu xanın oğulluğa götürdüyü Kalbalı xan sənədlərdə Kiçik ağa, Kiçik Kalbalı xan, Kalbalı xan kimi qeyd edilib. Təxminən 1785-ci ildə doğulub. 29.07.1834-cü ildə vəfat edib [РГВИА, л. 1-3].

Naxçıvanlı şair Qüdsi Vənəndi ən məşhur qəsidə mədhiyyələrindən birini onun oğlu İskəndər xana ithaf edib. O da məşhur general olub və ADR-in yaradıcılarından biri olan Fətəli xan Xoyskinin atasıdır [РГВИА, л. 19-24]. Qafqaz Aktlarında bəzi yerlərdə general-mayor Kalbalı xan Xoyski Naxçıvanski familiyası ilə qeyd olunub. Bu o vaxtlara təsadüf edir ki, həmin illərdə I Ehsan xanın oğlu general-mayor Kalbalı xan Kəngərli-Naxçıvanski hələ çox gənc idi və o heç vaxt Gəncədə yaşamayıb. I Kalbalı xan da sonbeşik oğluna İskəndər adını qoyub. Hətta Naxçıvan xanlığının çətin vaxtlarında İskəndər xan Şəkidə Cəfərqulu xanın yanında yaşamalı olub. Bir sıra tədqiqatçılar yazırlar ki, Qüdsi Vənəndi qəsidəni naxçıvanlı İskəndər xana ithaf edib [Qədimov, 2003, 376 s.]. Amma araşdırmalar göstərir ki, qəsidə İskəndər xan Xoyskiyə ithaf olunub. Qüdsi heç vaxt Naxçıvana bağla olmayan məşhurlara qəsidələr yazmayıb. Göründüyü kimi, bu məsələnin aydınlaşması üçün Qafqaz Aktlarının səhifələrində olan Naxçıvan tarixini dönə-dönə səhifələməliyik və öyrənməliyik. Təxminən birlikdə 120 kiloqram ağırlığında olan bu sənədlər toplusunda Naxçıvan tarixi ilə bağlı açılmayan səhifələr var. O səhifələr ki, bir çox qaranlıq məsələlərin aydınlaşmasına nəinki köməklik edər, hətta Naxçıvan xanlarının, xüsusilə I Kalbalı xanın və I Ehsan xanın diplomatik gedişlərində zamanına görə nə qədər haqlı olduqları aşkar görünərdi. Elə yerindəcə bir faktı göstərmək yaxşı olardı. Qafqaz Aktlarının VII cildində yazılıb: "Rusiya qoşunları dərhal Azərbaycan vilayətindən çıxmalıdırlar, yalnız ikisindən savayı" (həmin iki xanlıq – Naxçıvan və İrəvan xanlıqlarıdır – müəllif). Elə həmin səhifədə Rusiyanın himayəsində olmaqla bütün xanlıqların siyahısı da göstərilib. Oradakı izahatdan məlum olur ki, buna 1828-ci ilin aprelində Rusiyanın Türkiyə ilə başladığı müharibə mane olub. Obyektiv səbəblərə görə həmin səhifəni genişliyi ilə açıqlaya bilmirik. Amma tarixi fakt faktlığında qalır [АКАК, т. VII, 1878, s. 571].

## NƏTİCƏ

Məşhur general Cəfərqulu xan Xoyskinin (Şəkinskinin) fəaliyyətini öyrənərkən aydın oldu ki, bəzi məqamları istisna etməklə, onun Naxçıvan xanlığına münasibəti ömrünün sonuna kimi sədaqətli olub. Hətta bu sədaqətlilik sonralar onun varisləri tərəfindən də qorunub saxlanılmışdır.

Qafqaz tarixində Kəngərlilərin (Naxçıvanskilərin), onların dost-doğmaca xalası uşaqları olan Xan Xoyskilərin (burada söhbət kiçik Kalbalı xan Xoyskinin oğlu İskəndər xandan və oğlu Fətəli xan Xoyskidən gedir) yaratdıqları bir zəfərli tarix var. O tarix ki, heç vaxt unudulası mümkün deyil.

## ƏDƏBİYYAT

Əliyev, F. & Əliyev, M. (1996). *Naxçıvan xanlığı*. Azərnəşr.

Dəlili, H.Ə. (1979). *Azərbaycanın cənub xanlıqları XVIII əsrin ikinci yarısında*. Elm.

Qədimov, Ə.N. (2003). *XIX əsr Ordubad ədəbi mühiti*. Qüdsi Vənəndi. ADPU Nəşriyyatı.

Quliyev, M.R. (2013). *Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri*. Əcəmi.

Mustafayeva, N.Ç. (1995). *Cənubi Azərbaycanın xanlıqları*. Azərnəşr.

Акты, собранные Кавказской Археографической Комиссией (АКАК) в 12-ти томах (1-й том). (1866). Типография Главного Управления Наместника Кавказа.

АКАК (2-й том). (1868). Типография Главного Управления Наместника Кавказа.

АКАК (3-й том). (1869). Типография Главного Управления Наместника Кавказа.

АКАК (5-й том). (1874). Типография Главного Управления Наместника Кавказа.

АКАК (6-й том). (1874). Типография Главного Управления Наместника Кавказа.

АКАК (7-й том). (1878). Типография Главного Управления Наместника Кавказа.

Бутков, П.Г. (1869). *Материалы для новой истории Кавказа с 1722 по 1802 г.* (2-й том). Типография Императорской академии наук.

Исмаилов, Э.Э. (2003). Ханы Хойские. Материалы к родословной и биографиям. *Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri* (dördüncü buraxılış). Adiloğlu.

Нагдалиев, Ф.Ф. (2006). *Ханы Нахичеванские в Российской Империи*. Новый аргумент.

РГВИА (Российский Государственный Военно-Исторический Архив): ф. 400, опись 17, д. № 4307.

*(Akademik İsmayıl Hacıyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 06.01.2026**
**Son variant 17.02.2026**